DÜNYA XƏBƏRLƏRİ

# 'Telegram'ın qurucusu 'terrorçular və ekstremistlər' siyahısında

indicə




Pavel Durov

Rusiyanın Maliyyə Monitorinqi üzrə Federal Xidməti (Rosfinmonitorinq) "Telegram" messencerinin qurucusu **Pavel Durov**u "terrorçular və ekstremistlər" siyahısına salıb.

Bundan əvvəl Rusiyada Durova qarşı "terror fəaliyyətinə yardım" ittihamı ilə cinayət işi açılıb. İstintaqın versiyasına görə, "Telegram" administrasiyası Ukrayna xüsusi xidmət orqanlarının Rusiyada diversiya və terror aktlarını hazırlamaq, əlaqələndirmək üçün fəal istifadə etdiyi kanalları, çatları və botları silməyib.

Rusiya Federal Təhlükəsizlik Xidməti (FSB) iddia edir ki, 2025-ci ilin iyulundan Rusiyada "Dayvinçik/Leo" botunun 12-22 yaşlı 46 istifadəçisi saxlanılıb. FSB-nin

versiyasına görə, onlar Ukrayna xüsusi xidmət orqanlarının tapşırığı ilə polis əməkdaşlarına hücum edib, bəzi yerləri yandırıblar.

P.Durov 2026-cı ilin fevralında barəsində cinayət işi açıldığını açıqlayıb. Apreldə Rusiyada 20 il əvvəl yaşadığı ünvana göndərilən çağırış vərəqəsində o, "şübhəli şəxs" kimi göstərilib.

Bəzi qəzetlər FSB-nin materiallarına istinadla iddia edirlər ki, "Telegram" "xüsusi hərbi əməliyyat" (SVO) şəraitində NATO ölkələri və Ukraynanın xüsusi xidmət orqanlarının "əsas alətinə" çevrilib. Moskva Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı işğalını "SVO" adlandırır.

2026-cı ilin aprelində Rusiya hakimiyyətinin "Telegram"ı ölkədə bloklamaq cəhdlərinə cavab olaraq Durov rusiyalıları "Rəqəmsal Müqavimət" hərəkatına qoşulmağa çağırmışdı. O, messencerin internet trafikini Rusiyada aşkarlamağı və bloklamağı daha da çətinləşdirəcəyinə söz vermişdi.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur